# "Sənətkarın dostu" layihəsi çərçivəsində növbəti görüş



**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təşkilatçılığı ilə "Sənətkarın dostu" layihəsi çərçivəsində növbəti görüş keçirilib.**

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, Əhməd Bakıxanov adına 6 nömrəli Uşaq musiqi məktəbində təşkil olunan görüşdə Xalq artisti Şəfiqə Eyvazova, Əməkdar incəsənət xadimi, professor Arif Əsədullayev və kamança ifaçısı Mehri Əsədullayeva iştirak ediblər. Mərkəzin direktoru vəzifəsini icra edən Vüqar Hümbətov çıxışında layihənin gənclərlə sənət nümayəndələri arasında bir körpü rolu oynadığını vurğulayıb.

Görüşdə kamança aləti və onun ifaçılıq ənənələrindən danışılıb. Həmçinin milli musiqi mədəniyyətinin inkişafında kamançanın rolu, insan təbiətinə və gənclərin musiqi zövqünün formalaşmasına təsiri barədə söhbət aparılıb.

Səmray Əliyevanın moderatorluğu ilə keçirilmiş tədbirdə Rəşid Behbudov adına 2 nömrəli onbirillik musiqi məktəbinin 10-cu sinif şagirdi Ceyhun Aslanlı və qonaqların ifasında müxtəlif musiqi əsərləri təqdim olunub.

Sonda professor Arif Əsədullayev kamança aləti ilə bağlı kitablarını mərkəzə hədiyyə edib.

Qeyd edək ki, "Sənətkarın dostu" layihəsi çərçivəsində mədəniyyətin müxtəlif sahələri üzrə incəsənət xadimlərinin iştirakı ilə paytaxt Bakı və regionlarda maarifləndirici, musiqili və interaktiv görüşlərin təşkili nəzərdə tutulur. Layihə mədəniyyətin təşviqi, uşaq və gənclərin yaradıcılığının stimullaşdırılması, görkəmli mədəniyyət xadimləri ilə gənc istedadların zəngin təcrübə mübadiləsinin təşkili məqsədilə həyata keçirilir.

Azərbaycan. - 2024.- 5 oktyabr (№ 218).- S.16.